# "COP29:

## Planetimizin Nəbzi

## Bakıdan Atır"



**COP29: Dünya İqlim Dəyişiklikləri ilə Mübarizədə Yeni Addımdadır...**

## COP29 nədir?

Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) hər il keçirilir . Sədrlik BMT-nin beş regionu qrupunu təşkil edən 198 ölkənin səs verməsi ilə keçirilir.

**Sənaye inqilabından bəri insanlar qazıntı yanacağı istifadə etməyə başladılar: kömür, neft və qaz. Onları yandırdıqda atmosferə istixana qazları buraxılır.**

**Ən çox yayılan istixana qazı CO2 (karbon dioksiddir).**

**Bunlardan xilas olmaq üçün dünya dövlətləri birgə COP konfransı keçirərək tədbirlər planı hazırlayırlar.**




**Bu tədbirlər planı alternativ enerji mənbələrinə keçid, enerji səmərəliliyinin artırılması və karbon emissiyalarının azaldılması kimi məqsədləri əhatə edir. Həmçinin təbii resursların daha səmərəli istifadəsi və yaşıl texnologiyaların tətbiqi kimi addımlar nəzərdə tutulur.**



**İlk Tərəflər Konfransı 1995-ci ildə Almaniyanın paytaxtı Berlində keçirilib, sonuncusu isə ötən il Dubayda baş tutub. Bu il isə 200-ə yaxın ölkənin qərarı ilə Azərbaycanda həyata keçirildi. Bu, ölkəmizin beynəlxalq nüfuzunu göstərən əhəmiyyətli bir faktordur.**

**Konfrans iqlim fəaliyyətini sürətləndirmək və Paris Sazişinin məqsədlərinə nail olmaq üçün tarixi görüş hesab olunur.**



*Tədbirin keçiriləcəyi məkan olaraq Bakı Stadionu seçilib.*

**COP29-un məqsədi iqlim dəyişkənlikləri ilə mübarizə aparmaq və beynəlxalq tədbirlər görmək üçün ölkələri bir araya gətirməklə qlobal istiləşmə tempini yavaşlatmaq, qlobal istiləşməyə məruz qalan ərazilərin adaptasiyasını dəstəkləmək və 2050-ci ilə qədər sıfır emissiyaya nail olmaqdır.**

**Bu il Azərbaycanın ev sahibliyi etdiyi COP29 konfransı növbəti il Braziliyada baş tutacaq COP30 konfransı üçün mühüm zəmin yaradır. COP çərçivəsində Braziliya və Birləşmiş Ərəb Əmirlikləri qlobal istiləşməni 1,5 dərəcə həddində saxlamaq üçün birgə fəaliyyət göstərəcəklər. Bu əməkdaşlıq iqlim dəyişiklikləri ilə mübarizədə qlobal səylərin gücləndirilməsinə mühüm töhfə verəcək.**

# Əsas Hədəflər...

- ***Bərpa olunan enerji texnologiyalarının inkişafı***: Sənaye, nəqliyyat və digər sahələrdə təmiz enerji istifadəsinin artırılması və karbon kvotalarının tənzimlənməsi planlaşdırılır.Günəş və külək enerjisi kimi təmiz enerji mənbələrinin genişləndirilməsi.

- **İqlim dəyişikliklərinə qarşı mübarizədə beynəlxalq əməkdaşlıq**: Dövlətlər arasında hüquqi və maliyyə razılaşmalarının gücləndirilməsi.İnkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliklərinin təsirlərinə uyğunlaşmaq və bu dəyişikliklərə qarşı mübarizə aparmaq üçün maliyyə dəstəyi veriləcək.

- **Yaşıl iqtisadiyyat və davamlı infrastruktur**: Karbon emissiyasını azaltmaqla yanaşı, iqtisadi inkişafın və sosial bərabərliyin təmin olunması.








# Azərbaycanın Rolu və Hədəfləri

Azərbaycan iqlim dəyişikliyinə qarşı mübarizədə milli prioritetlərini müəyyən edib. "Azərbaycan 2030: Sosial-İqtisadi İnkişaf üzrə Milli Prioritetlər" çərçivəsində ölkə 2030-cu ilə qədər istixana qazlarının miqdarını 35% azaltmağı, enerji istehsalında isə bərpa olunan enerji mənbələrinin payını artırmağı hədəfləyir. Mingəçevir Su Elektrik Stansiyası və Qaradağ Günəş Elektrik Stansiyası kimi layihələr bu məqsədə çatmaqda əsas rol oynayır. Eyni zamanda, Azərbaycanın zəngin külək və günəş enerjisi potensialı onu regionda lider bir ölkəyə çevirir.








# COP29 çərçivəsində KİV-in rolu...










İqlim dəyişikliyi ilə bağlı məlumatlılığı artırmaq və cəmiyyəti bu prosesə cəlb etmək baxımından əvəzsizdir. Azərbaycan mətbuatı və onlayn platformalar iqlim problemlərini işıqlandırmaq, tədbirin əhəmiyyətini izah etmək və ölkənin bu sahədəki təşəbbüslərini tanıtmaqda mühüm rol oynadı. Qəzetlər, saytlar və TV kanalları vasitəsilə ictimaiyyətə iqlim dəyişikliyi ilə mübarizə yolları, bərpa olunan enerji layihələri və beynəlxalq əməkdaşlıq haqqında məlumatlar çatdırıldı.

KİV yalnız məlumatlandırma ilə məhdudlaşmayaraq, həm də insanların bir araya gəlməsinə töhfə verdi. Xalqın bütün təbəqələri – uşaqlardan tutmuş yaşlılara qədər – bu prosesdə iştirak etdi. Gənclər könüllü tədbirlərdə yer aldı, məktəblilər iqlim mövzularında maarifləndirici aksiyalar keçirdi, müsabiqələr ,yarışlar təşkil olundu. Bu, KİV və cəmiyyətin birgə səyləri nəticəsində mümkün oldu.

## COP29 Nəticə...

COP29 iqlim dəyişiklikləri ilə mübarizədə qlobalaşmasına təkan veribdir. Qlobal temperatur artımını 1.5°C ilə məhdudlaşdırmaq məqsədilə atılmış addımlar və yeni maliyyə dəstəyi mexanizmləri, dünyanın ən həssas regionlarında dayıma əməkdaşlığı möhkəmləndirmək və planetimizin gələcəyini qorumaq üçün vacib bir addım oldu. Bakı şəhərində keçirilmiş bu konfrans yalnız dövlətlərin deyil, həm də vətəndaş cəmiyyəti, qeyri-hökumət təşkilatları və özəl sektorun ortaq səyləri ilə daha güclü bir iqlim siyasətinin formalı inkişafın təmin olunmasına xidmət edibdir. İqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığın daha da güclənməsi və innovativ texnologiyaların tətbiqi gələcək nəsillər üçün daha təmiz və yaşanabilir bir dünya yaratmaq yolunda mühüm əhəmiyyət kəsb edibdir. COP29 qlobal səviyyədə iqlim dəyişikliyinə qarşı möhkəm bir iradə nümayiş etdirilməsi və kollektiv hərəkətin gücünü nümayiş etdirmək üçün mühüm bir mərhələ olubdur.







**BDU Jurnalistika fakültəsinin III Kurs tələbəsi Südabə Məmmədova.**

**Südabə Məmmədova Akif**

**Jurnalistika Fakültəsinin III Kurs tələbəsi**

**070 316 61 37**

**Qrup nömrəsi 079 Jk**

**mammedovasudab@gmail.com**